**Tədris Mərkəzinin “Elm, innovasiya və əməkdaşlıq şöbəsi” tərəfindən 2019-cu ildə görülmüş işlərə dair hesabat**

**1.** 2019-cu il üçün elmi-tədqiqat mövzusu kimi müəyyən olunmuş “Transfer qiymətləndirmə prosesində səmərəliliyin gücləndirilməsi” illik plan işi yerinə yetirilmişdir.

**2.** Mərkəzin Fəaliyyət Planına uyğun olaraq şöbə tərəfindən il ərzində 2 elmi seminar təşkil olunmuşdur. Bunlardan biri 4 aprel 2019-cu il tarixdə Transfer qiymətinə həsr olunmuşdur. Digəri isə 10 sentyabr 2019-cu il tarixdə “Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Qanun layihəsinin müzakirəsi ilə bağlı olmuşdur. Sonuncu seminarın müzakirəsinin nəticələri əsasında qeyd edilən Qanun layihəsi müddəalarının təkmilləşdirilməsi barədə hazırlanmış yekun sənəd Vergilər Nazirliyinin müvafiq strukturuna təqdim olunmuşdur.

Bundan başqa, 16 noyabr 2019-cu il tarixdə Tədris Mərkəzinin “Vergi qanunvericiliyinin tədrisi” şöbəsi birlikdə “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Qanun layihəsinin müddəalarının dərindən öyrənilməsi məqsədi ilə işçi qaydada tədbir təşkil olunmuşdur. Tədbirdə Qanun layihəsinin əhatə etdiyi dəyişikliklərin əsas istiqamətləri, təklif edilən maddələrin məzmun baxımından təsnifatının aparılması məsələləri müzakirə olunmuşdur. Qanun layihəsinin qəbul olunduqdan sonra Mərkəzdə dəyişikliklərin istiqamətlərinə uyğun şəkildə təlimlərin təşkil edilməsi və sillabuslarda müvafiq qaydada nəzərə alınması qərara alınmışdır.

**3.** Hesabat dövründə şöbə əməkdaşları respublika daxilində və xaricdə keçirilən aşağıdakı elmi tədbirlərdə iştirak etmişlər:

1) 2-3 may tarixlərində Bakı Biznes Universiteti tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı il dönümünə həsr olunmuş “Azərbaycanda ali təhsilin beynəlmiləlləşdirilməsi və rəqabətliliyinin yüksəldilməsi istiqamətləri” mövzusunda təşkil olunan beynəlxalq elmi-praktiki konfrans (Xəlil Əfəndiyev);

2) 12 iyun tarixində Bakı Biznes Mərkəzində təşkil edilən, 100-dən çox şirkəti təmsil edən və 250-yə yaxın maliyyə mütəxəssisi və mühasibi bir araya gətirən “III Milli Mühasiblər Forumu” (Mirəli Kazımov);

3) 21 iyun tarixində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yanında fəaliyyət göstərən İctimai Şura tərəfindən təşkil olunan "Təhsil Biznesi Forumu" (Mirəli Kazımov)

4) 13 sentyabr tarixində Vergilər Nazirliyi, Azərbaycan İqtisadçılar İttifaqı və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə "Kölgə iqtisadiyyatı"na qarşı mübarizə - iqtisadi inkişafın mühüm amili kimi" mövzusunda keçirilən elmi-praktik konfrans (Mirəli Kazımov);

5) 28-30 oktyabrda Almaniyanın MaxPlank institutu tərəfindən Gürcüstanın paytaxtı Tbilisi şəhərində "Korrupsiyaya qarşı mübarizə problemləri" mövzusunda keçirilmiş beynəlxalq konfrans (Mirəli Kazımov);

6) 11-16 noyabr tarixdə İtaliya Vergi Agentliyinə rəsmi səfər;

7) 15 noyabr tarixində Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) və Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun Bakıda təşkil etdiyi "Süni intellekt və insan hüquqları" adlı beynəlxalq konfrans (Nazim Əliyev);

8) 23-29 noyabr tarixlərində Almaniyanın Kil Universitetində "Azərbaycan Respublikası Vergi Məcəlləsinin Almaniya vergi təcrübəsi əsasında təkmilləşdirilməsi" mövzusunda keçirilmiş seminar (Mirəli Kazımov);

9) 26 dekabr 2019-cu il tarixdə Mərkəzi Bankda "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin "İstehlakçıların maliyyə savadlılığının artırılması və hüquqlarının müdafiəsinin gücləndirilməsi" prioritetinin icrası üzrə İşçi qrupunun iclası (Şahzadə Mədətova).

**4.** Hesabat dövründə əməkdaşların Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən elmi məqalələrin dərc olunması tövsiyə edilən aşağıdakı nəşrlərdə 9 elmi məqaləsi çap olunmuşdur:

1) Состояние и динамика преступности в экономической сфере Азербайджанской Республики // "Qanun" elmi hüquq jurnalı. № 08 (298), 2019. S. 49-55 (Mirəli Kazımov, Nazim Əliyev);

2) Respublikamızda məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi demokratik, hüquqi dövlətimizin növbəti əsas təminatlarından biri kimi // Konstitusiya Məhkəməsinin Məlumatı, 2019, № 2 (79), s. 97-104 (Mirəli Kazımov, Nazim Əliyev);

3) Развитие законодательства в борьбе с преступлениями, совершаемыми в финансово-кредитной сфере Азербайджана //

“Юридические науки и образования (Juridical sciences and education)”. № 60, 2019, c. 311-339 (Mirəli Kazımov, Nazim Əliyev);

4) Международный опыт в борьбе с налоговыми правонарушениями и преступлениями // “Azərbaycan Vergi jurnalı”, № 1 (138), 2019, c. 131-138 (Mirəli Kazımov, Nazim Əliyev);

5) Общая характеристика регламентации финансово-кредитной системы Азербайджанской Республики // "Audit" jurnalı. Cild 25, № 3, 2019, c. 38-48 (Mirəli Kazımov, Nazim Əliyev).

6) Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinin ölkəmizdə sahibkarlıq fəaliyyətinin inkişafında xüsusi rolu olacaqdır. “Respublika” qəzeti, 25 aprel 2019-cu il, № 89 (6416) (Mirəli Kazımov, Nazim Əliyev);

7) Qanunsuz sahibkarlıq fəaliyyətinin leqallaşdırılması üçün nə etmək lazımdır? / “Vergilər” sosial-iqtisadi onlayn qəzeti. 16 iyul 2019-cu il (Mirəli Kazımov);

8) Vergi Məcəlləsində transfer qiyməti ilə bağlı nəzərdə tutulan dəyişikliklər / “Vergilər” sosial-iqtisadi onlayn qəzeti. 19 noyabr 2019-cu il (Nazim Əliyev).

Tədris Mərkəzinin digər struktur vahidlərinin əməkdaşlarının isə aşağıdakı elmi məqalələri çap olunmuşdur:

1) Некоторые вопросы совершенствования налоговой системы Азербайджана // Вестник Карагандинского университета, серия Экономика. № 2, 2019, 6 c. (Məhərrəmov R.B., Məmmədzadə N.R., Mədətova Ş.Q.).

2) Vergi öhdəliklərinin yerinə yetirilməsi üzrə korporativ nəzarətin istiqaməti kimi vergi risklərinin qiymətləndirilməsi / “Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri” mövzusunda Respublika Elmi konfransının materialları (Sumqayıt Dövlət Universiteti 25-26 aprel 2019-cu il), 7 s. (Məhərrəmov R.B., Məmmədzadə N.R., Mədətova Ş.Q.).

3) Gəlir vergisinə yeni yanaşma və "ikili" mühasibatlığın sonu // UNEC, Ekspert № 7, s. 16-18 (Məhərrəmov R.B).

4) Ələt Azad iqtisadi zonasında vergitutma məsələlərinin tənzimlənməsi // “Azərbaycan Vergi jurnalı”, № 1 (138), 2019, 8 s. (Məhərrəmov R.B).

5) Evaluation of TANAP and TAP projects efficiency: Diversification of the gas supply for the EU’s energy security - Caspian and Central Asian Gas. / 37-ci Davamlı inkişafın sosial-iqtisadi problemləri mövzusunda keçirilmiş beynəlxalq elmi konfransın materialları (Əliyev A.V., İbrahimov M., Babayev T.)

6) Is it possible the EU's shifting priorities from Russian to Turkish dependence for gas supply? // Beynəlxalq hüquq və inteqrasiya problemləri. Elmi-analitik və praktiki jurnal. 2019 (Əliyev A.V.).

7) Qeyri-dövlət pensiya fondlarının formalaşdırılmasının və fəaliyyətinin təşkilinin bəzi iqtisadi və hüquqi aspektləri / Bakı Dövlət Universtetinin Hüquq Fakültəsinin 90-illiyinə həsr olunmuş Beynəlxalq Elmi-praktiki konfransın materialları. Bakı-2019, s. 537-540 (Babayev Z.A).

**5**. Şöbə tərəfindən "İntellektual bank" bölməsinə aşağıda göstərilən 7 material (məqalə və təqdimat) yerləşdirilmişdir:

1) Diferensiallaşdırılmış əlavə dəyər vergisinin tətbiqi məsələləri;

2) Transfer qiymətləri;

3) Səhiyyə sahəsində vergidən yayınma hallarının qarşısının alınması və qanunsuz sahibkarlıq fəaliyyətinin leqallaşdırılması;

4) Elektron ticarətin vergiyə cəlb olunması;

5) Məhkəmə hüquq islahatlarının dərinləşdirilməsi: biznes mühitinin inkişafına təsiri kontekstində;

6) Международный опыт в борьбе с экономическими преступлениями.

7) Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklər: transfer qiyməti kontekstində.

**6**. Beynəlxalq vergi aləmində baş verən yeniliklər barədə E-kitabxanaya 212 sayda xəbər yerləşdirilmiş, qiymət indeksləri gündəlik olaraq verilmişdir.

Eyni zamanda, Azərbaycan Respublikası Vergilər nazirliyinin 29 noyabr 2019-cu il tarixli 1917040101525800 nömrəli əmri əsasında Vergi siyasəti baş idarəsi tərəfindən Beynəlxalq Vergi İnformasiya Platformasında mövcud olan və Tədris Mərkəzinə təqdim olunmuş innovativ layihələr ilə bağlı məlumatlar, xarici ölkələrin vergi inzibatçılığı və qanunvericiliyinə dair icmallar təsnifat olunmaqla, Vergilər nazirliyinin elektron kitabxanasına yerləşdirilmişdir.

**7**. Vergilər Nazirliyindən "Biznes statistikasının toplanması, harmonizasiyası, təhlili, nəşri və yayılması sahələrində Dövlət Statistika Komitəsinə və Vergilər Nazirliyinə dəstək layihəsi"nin icrasına başlamaq məqsədilə hazırlanmış layihə fişinə rəy və təkliflərin bildirilməsi barədə 13.09.2019-cu il tarixli 1917030019362700 nömrəli xidməti məktuba Mərkəzin struktur vahidlərinin münasibətləri öyrənilmiş və yekun rəy hazırlanıb, Beynəlxalq əlaqələr baş idarəsinə verilmişdir.

**8**. Vergilər Nazirliyinin Aparat rəhbərinin göstərişinə əsasən, Rusiya Federasiyası Hökuməti nəzdində Maliyyə Univesiteti, Nijni Novqorod

Akademiyası və Qazaxıstan Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanları Akademiyası ilə əlaqələrin qurulması üzrə işlərin görülməsi davam edir. Rusiya Federasiyası Hökuməti nəzdində Maliyyə Univesiteti ilə əməkdaşlığa dair memorandum layihəsi işlənib hazırlanmışdır.

**9**. Tədris Mərkəzi ilə Bakı Dövlət Universiteti arasında əldə olunması nəzərdə tutulmuş əməkdaşlığın çərçivəsinə daxil olan işlər üzrə Tədbirlər Planının ilkin işçi layihəsi hazırlanmışdır.

**10**. Ukraynanın Priazovsk Dövlət Texniki Universiteti ilə vergi orqanları üçün ixtisaslı kadrların hazırlanması və s. istiqamətlər üzrə əməkdaşlığın qurulmasına dair müvafiq yazışmalar aparılmışdır.

**11**. Vergilər Nazirliyinin İnsan Resursları idarəsinin rəis müavini Nərgiz Muradovanın, Mərkəzin rəis müavini Mirəli Kazımovun iştirakları ilə ACCA-nin Ukrayna, Belarus və Qafqaz ölkələri üzrə rəhbəri Canetta Onisçuk arasında əməkdaşlıq əlaqələrinin qurulması üzrə işçi qaydada bir neçə görüş keçirilmişdir. Əməkdaşlıq çərçivəsində ACCA-nın bəzi modulları ilə milli vergi qanunvericiliyinin uyğunlaşdırılması məsələləri müzakirə edilmişdir.

Avstriya iqtisadçısı, professor Fridrix Şneyder ilə görüş zamanı kölgə iqtisadiyyatı, PL/TM-ə qarşı tədbirlərin gücləndirilməsi və qanunvericilik aktlarının təkmilləşdirilməsi məsələləri müzakirə edilmişdir.

**12**. Rusiya Federasiyasının Zabaykalsk Dövlət Universitenin Ali İqtisad Məktəbinin direktoru, "İqtisadi nəzəriyyə və dünya iqtisadiyyatı" kafedrasının müdiri, "Теневая Экономика" jurnalının baş direktoru, iqtisad elmləri doktoru Vitali Burov ilə birgə müəlliflik, elmi-nəşriyyat fəaliyyətlərinin həyata keçirilməsi üzrə müzakirələr aparılmış, "Теневая Экономика" jurnalına Mərkəzin əməkdaşları tərəfindən hazırlanmış məqalələrin çap olunmasına dair ilkin razılaşma əldə olunmuşdur.

**13**. Onlayn kassa ödənişlərinin genişlənməsi ilə əlaqədar vergi sahəsində ictimai nəzarəti stimullaşdıran əlavə innovativ alətin tətbiq olunması təklifi hazırlanmış, təklifin əsaslandırılmasına dair müvafiq arayış və təqdimat tərtib edilmiş və baxılması üçün Vergilər nazirliyinin rəhbərliyinə təqdim olunmuşdur.

**14**. Hesabat dövründə rəis müavini Mirəli Kazımov və şöbə rəisi Nazim Əliyev 14-15 və 17-18 oktyabr 2019-cu il tarixlərində Tədris Mərkəzində "Cinayət və cinayət-prosessual qanunvericilik. Mülki-prosessual qanunvericilik" mövzusunda təşkil edilmiş tədbirdə 12 saat həcmində təlim aparmışlar.